


"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 mart 2026-cı il №21 (3023) https://mod.gov.az Qiymәti 30 qəpik


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər diləyirəm.

Azərbaycan torpağında çox qədim kökləre malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərməğanıdır. Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici abhavası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik.

Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhval-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 mart 2026-cı il

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Mənəvi-əxlaqi kamilliyi və nəcib niyyətləri özündə təcəssüm etdirən, insanların ruhunu və təfəkkürünü saflaşdıran on bir ayın sultanı Ramazan artıq başa çatır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, yardımlaşma, şəfqət və mərhəmət kimi xeyirxah əməllərin sevincini yaşayırlar.

Azərbaycan yüzillərdir ki, ayrı-ayrı etiqad və inancların əmin-amanlıq şəraitində dinc yanaşı mövcud olduğu nadir məkanlardandır. Bəşəriyyəti daim sülhə, humanizmə və qardaşlığa dəvət edən İslam dini tarixən cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılmasında, qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühitinin və milli-mənəvi həmrəyliyin bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Ramazan ayı hər il xalqımızın birlik və bərabərliyini daha da gücləndirir, xeyirxahlığın və savab əməllərin təntənəsinə çevrilir. Bu mübarək günlərdə dövlətimizin əmin-amanlığı, firavanlığı və tərəqqisi naminə etdiyiniz dualara qoşulur, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm.

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 mart 2026-cı il

## Milli Məclis qadın hərbçilərlə bağlı qanunvericiliyə dəyişikliyi qəbul edib

Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadınlarla bağlanan ilkin bağlaşma müddəti 3 ildən 6 ayadək azaldılır.

AZƏRTAC xəbər verir ki, bu, Milli Məclisin martın 17-də keçirilən iclasında müzakirəyə çıxarılan "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna təklif olunan dəyişiklikdə öz əksini tapıb.

Qeyd edilib ki, praktikada kişi cinsli vətəndaşlar müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmazdan əvvəl müddətli həqiqi hərbi xidmət keçdiklərinə görə hərbi xidmətə uyğunlaşma mərhələsini artıq başa vurmuş olurlar. Qadınlar isə müddətli həqiqi hərbi xidmət keçmədən birbaşa müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edildiklərinə görə ilkin mərhələdə hərbi xidmət şəraitinə uyğunlaşmada çətinliklərlə üzləşirlər. Qadınlarla dərhal 3 illik ilkin bağlaşmanın bağlanması onların uyğunlaşma dövrünü keçmədən uzunmüddətli öhdəlik götürməsinə səbəb olur ki, bu da sonradan əsasən ailə vəziyyəti və digər obyektiv səbəblərlə hərbi xidmətdən vaxtından əvvəl ehtiyata buraxılmaları ilə nəticələnir və kadr sabitliyinə mənfi təsir göstərir.

*Təlim*

## Əsgərlər döyüş hazırlığında mütəşəkkildirlər



Hər bir əsgərin uğuru onun döyüş hazırlığındadır. Bölümənin yüksək döyüş hazırlığı isə əsgərin fərdi, manqa, taqım hazırlığından keçir. Kapitan Qadir Abbasov şəxsi heyətin mənəvi-psixoloji hazırlığına məsul şəxslərdəndir. O deyir ki, müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun əsgərlərə dərslər keçirilir. Təlim-tədris proqramına əsasən, əsgərlərin fərdi hazırlıqları, çöl-səhra məşqləri planlanır. Hazırda əsgərlərin taktiki, atəş, kəşfiyyat, fiziki, mühəndis və başqa hazırlıqları peşəkar hərbçilər tərəfindən həyata keçirilir. Zabit onu da qeyd etdi ki, əsgərlərin həm fərdi, həm də qrup şəklində hazırlıqları ilə məşğul olan kiçik komandirlər də kifayət qədər bilikli və bacarıqlı hərbçilərdir.

Qışın son ayıdır. Soyuq külək əsir. Hava bir qədər dumanlı və yağmurludur. Buna baxmayaraq əsgərlər çöl təlimlərinə davam edirlər. Motoatıcı manqa çöl məşğələsində mövzuya uyğun dərsdədir.

Əsgər Allahverdi Mehdiyev bacarıqlı, işinin öhdəsindən gələn kiçik komandirlərdəndir. O, komandiri olduğu manqanın şəxsi heyəti ilə məşğələ yerindədir. "Manqa hücumda" mövzusu əsasında əsgərlərin döyüşdə ayaqüstü, dizüstü və uzanaraq atəş açma qaydalarını praktiki olaraq necə yerinə yetirməsinin qaydalarını izah edir, daha sonra isə onlardan icrasını tələb edir.

(Ardı 2-ci səhifədə)

## Xan qalası - Şahbulaq



Şahbulaq qalası Qarabağ xanı Pənahəli xan tərəfindən 1750-1752-ci illərdə inşa etdirilib. Memarlıq abidəsinin tikinti işləri Ağdamın Şahbulaq adlı ərazisində aparılıb. Ehtimal olunur ki, qalanın adı da burada yerləşən gursulu bulağın adından - Şahbulağından götürülüb. Şahbulaq qalası Qarabağ xanlığının ərazisində inşa etdirilən ikinci qaladır.

Şahbulaq qalası Qarabağ xanlığına inzibati mərkəz kimi inşa edilib. Müdafiə tipli tikili olan qala müəyyən bir dövr ərzində yaşayış yeri kimi istifadə olunsa da, sonradan gözətçi məntəqəsi kimi istifadə olunub.

(Ardı 7-ci səhifədə)

## Ötən həftə 323 mina və 724 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən martın 10-15-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 129, tank əleyhinə 194 mina və 724 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1234,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Azərbaycan Respublikası müdafiə nazirinin Novruz və Ramazan bayramları münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi xalqımızın milli-mənəvi və mütərəqqi islami dəyərlərini özündə yaşadan Novruz bayramı və mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd olunan və xalqımızın ən əziz bayramı sayılan Novruz yazın gəlişindən, təbiətin oyanışından xəbər verdiyi kimi, müqəddəs Ramazan bayramı da xalqımızın humanizm prinsiplərinə sadiqliyini, mərhəmət və mənəvi kamillik dəyərlərini özündə təcəssüm etdirir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan qədim zamanlardan müasir günümüzədək milli-mənəvi dəyərlərimizə əbədiyaşarlıq qazandıraraq Novruz ənənələrimizi qoruyub saxlayıb. Tarixin ən sərt mərhələlərində belə xalqımız Novruzun gəlişini, müqəddəs Ramazan bayramını özünəməxsus coşqu və yüksək əhval-ruhiyyə ilə qeyd edib. Odlar yurdu Azərbaycanda Novruz və Ramazan bayramlarının ənənələrinin yaşanması xalqımızın milli-mənəvi dəyərlərinə bağlılığının bariz nümunəsidir.

Möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində müstəqil respublikamızda vətəndaş həmrəyliyinə nail olunub, ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub. Bu gün ölkə iqtisadiyyatının dayanıqlı inkişafı təmin edilib, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib. Prioritet istiqamətlərdən hesab edilən ölkəmizin hərbi qüdrətinin və ordumuzun peşəkarlığının daha da artırılması məqsədilə atılan addımlar həyata keçirilən islahatların əsas hissələrindəndir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artmış, xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatmışdır.

Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində, eləcə də sonrakı döyüş əməliyyatlarında Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlıqlar, fədakarlıq nümunələri sayəsində 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız azad edildi. Müzəffər Ali Baş Komandanın inamlı və uzaqgörən siyasəti, qətiyyətli mövqeyi, ordumuzun qüdrəti sayəsində parlaq Qələbə qazandıq, respublikamızın ərazi bütövlüyünü və suverenliyini tam təmin etdik.

Ötən il Bakı şəhərində möhtəşəm şəkildə keçirilən 8 Noyabr - Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş hərbi parad gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyinin bir daha təsdiqidir.

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin tarixi Sərəncamı işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinin aparılmasında mühüm rol oynayacaqdır.

Rəşadətli Azərbaycan Ordusu işğaldan azad olunmuş ərazilərdə Vətənimizin keşiyində mətinliklə dayanmaqla genişmiqyaslı bərpa-quruculuq işlərinin icrasına layiqli töhfələr verməkdədir.

Azərbaycanın müstəqilliyinin qorunması, ərazi bötövlüyünün və suverenliyinin bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi Novruz və Ramazan bayramları ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğılarının həlli istiqamətində mühüm addımlar atılır. Şəhidlərin valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları əlamətdar günlər münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, bu mübarək bayramlar gəlişi ilə ölkəmizə əmin-amanlıq, ailələrimizə xoşbəxtlik, süfrələrimizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Novruz və Ramazan bayramları münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz və Ramazan bayramlarınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının**
**müdafiə naziri**

# Əsgərlər döyüş hazırlığında mütəşəkkildirlər

**(Əvvəli 1-ci səhifədə)**



Əsgər Allahverdi Hüseyn oğlu Mehdiyev Saatlı rayonunda anadan olub. İki ilə yaxındır ki, müddətdən artıq həqiqi hərbi xidmətdədir. Allahverdi deyir ki, müddətli həqiqi hərbi xidmətini başa vurandan sonra ordu sıralarında xidmətini davam etdirmək arzusunda olub. Bu, həm də onun şəxsi iradəsindən gələn bir hissdir. Ordu sıralarından tərxis olunduqdan sonra istəyini doğmalarına - yəni, valideynlərinə bildirib. Onların xeyir-duası ilə "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu" kursuna daxil olmaq üçün lazım olan sənədlərini toplayıb, hərbi həkim komissiyasından keçib. Daha sonra "Motoatıcı" ixtisası üzrə imtahan verib. Allahverdi Təlim və Tədris Mərkəzində kursu uğurla başa vurub. Hazırda xidmət etdiyi hərbi hissəyə "Motoatıcı" manqa komandiri vəzifəsinə təyin olunub. Allahverdi Mehdiyevin məqsədi, məramı komandiri olduğu manqanın döyüş hazırlığını daim yüksəkdə saxlamaqdı. Bunun üçün o, bilik və bacarığını əsirgəmir. TTM-də oxuduğu müddətdə hərbi bilikləri dərindən mənimsəməyə çalışıb. O, yaxşı bilirdi ki, tezliklə kiçik komandir olacaq, komandir kimi üzərinə məsul vəzifə düşəcək. Bunun öhdəsindən gəlmək üçün mütləq yaxşı oxumaq, müəllimlərin tədris etdiyi bilikləri dərindən mənimsəmək, vərdişləri yüksək səviyyədə icra etməyi bacarmaq lazımdır. Zabit Fərid Fərzəliyev də əsgər Allahverdi Mehdiyevin xidmətindən razılığını belə ifadə edir: "Allahverdi bacarıqlı, öz işini sevən əsgərdir. O, verilən tapşırıqları dəqiq yerinə yetirməklə komandirlərinin hörmətini qazanıb. Allahverdi manqa komandiri kimi ilk gündən məsuliyyətlə xidmət etməyə başlayıb. Əvvəlcə elə təsəvvür yaranmışdı ki, o, xidmətin öhdəsindən gəlməkdə çətinlik çəkəcək. Lakin belə düşünməklə yanlışlığa yol verdiyimi gördüm. Allahverdi qısa müddətdə bölmənin əsgərlərinə nəzarəti ələ almağı bacardı. Həm idarəçilikdə, həm də əsgərlərlə mükəmməl təlim-məşqlər keçməklə nüfuz qazandı".



Dərs yerində Allahverdi əsgərlərə atış qaydalarını izah edirdi. Döyüşdə hücum zamanı qısa ziq-zaq qaçışlarla yer dəyişməni praktiki olaraq əvvəlcə özü həyata keçirir, daha sonra isə bir-bir əsgərlərdən bu qısa qaçışların yerinə yetirilməsini tələb edirdi.

Manqa komandiri deyir ki, hər bir əsgər əvvəlcə silahı tutmaq qaydasını və ondan düzgün nişan almağı bacarmalıdır. "Əgər əsgər bunları bilməsə, o, nə hədəfi məhv edə, nə də düşmənin olduğu mövqeyə daxil olub onu yerində zərərsizləşdirə biləcək. Döyüş tapşırığını uğurla yerinə yetirməyin ən doğru yolu məhz budur".

Əsgər Alı Zeynallı İmişli rayonundan hərbi xidmətə çağırılıb. Alı deyir ki, qısa müddətdə bacarıqlı və təcrübəli komandirlərin sayəsində bir sıra hərbi biliklərə yiyələnib. "Burada hər bir əsgər yuxarı rütbəli və vəzifəli şəxslərə hərbi salam verməlidir. Hərbi intizam da elə buradan başlayır. Buna əsgərliyin "əlifbası" da deyilir".

Atıcı Namiq Məhərrəmov Goranboy rayonundandır. Namiq deyir ki, o hələ uşaq olanda silahlı əsgərləri tez-tez görüb. Əvvəllər Goranboy rayonu düşmənlə təmas xəttində yerləşirdi. Əsgərlərin təlim meydanı da onlara yaxın olub. Orada tez-tez müxtəlif silahlardan keçirilən atışları uzaqdan müşahidə edib. Mərmilərin partlayış səslərini də eşidib. Namiq keçirilən məşğələlərin mahiyyətinə tam bələddir. O, silah və taktiki gedişləri daha yaxşı öyrənməyə can atır.



Əsgərlərdən Elcan Rzayev, Tuncay Şükürov, Ümid Murğuzov, Emil Həsənov, Eşqin Abbaslı, Nicat Mustafayev və başqaları da silahdaşlarının fikirləri ilə razıdırlar.

Həmsöhbət olduğum əsgərlərin başlıca məqsədi və məramı öyrədilən hərbi biliklərə mükəmməl yiyələnməkdir. Onlar bunun üçün səylə çalışırlar. Ümid Murğuzov deyir ki, torpaqlarımız uzun illər düşmən işğalında olub. "Azərbaycan əsgəri yüksək döyüş vərdişlərinə yiyələnməklə, 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əks-hücum əmri ilə qısa müddətdə torpaqlarımızı azad edib. Əgər əsgərlərin döyüş hazırlığı yüksək olmasaydı, müharibə 44 gün deyil, daha çox davam edərdi və itkilərin də sayı daha artıq olardı. Bunu bizə döyüş görmüş komandirlər danışıblar. Biz də çalışırıq ki, komandirlərin öyrətdikləri daha dərindən mənimsəyək və döyüş hazırlığımızı daim yüksəkdə saxlayaq".

Əsgərlərin məşğələ yerindən xoş ovqatla ayrılıram. Onlar öz hazırlıqlarını daha mütəşəkkil həyata keçirməyə davam edirlər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Ordu quruculuğunda Ümummilli Lider Heydər Əliyevin strategiyası və Prezident İlham Əliyevin qətiyyətli siyasəti

Azərbaycan dövlətinin möhkəmlənməsində və milli təhlükəsizliyin təmin olunmasında güclü ordunun rolu danılmazdır. Müstəqil Azərbaycanın hərbi gücünün formalaşması və inkişafı Ümummilli Lider Heydər Əliyevin apardığı strateji xəttin real nümunəsidir. Bu strateji xətti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev uğurla davam etdirir. Bu gün müasir, peşəkar döyüş qabiliyyətinə malik Azərbaycan Ordusu dövlətimizin gücünün, siyasi iradəsinin və xalqımızın birliyinin parlaq təcəssümüdür.



1991-ci ildə müstəqilliyini bərpa edən ölkəmiz ilk illərdə ciddi siyasi və hərbi sahədə müəyyən çətiliklərlə üzləşdi. Həmin dövrdə ordu quruculuğu sahəsində vahid sistem və idarəetmə mexanizmləri yetərincə zəifləmişdi. Ölkəni bu mürəkkəb vəziyyətdən xilas etmək üçün güclü siyasətçinin hakimiyyətə gəlməsi labüd idi. Belə bir şəraitdə xalqımız öz xilaskarının - Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasını israrla tələb etdi. Azərbaycanı və xalqımızı canından çox sevən dahi şəxsiyyət Heydər Əliyev insanların bu ümidini reallaşdıraraq yenidən hakimiyyətə qayıtdı. Elə ilk günlərdən Ulu Öndər güclü ordunun yaradılmasını dövlətçiliyin əsas prioritet istiqamətlərindən biri kimi dəyərləndirdi. Belə ki, qısa müddət ərzində Silahlı Qüvvələrdə nizam-intizamın möhkəmləndirilməsi, vahid komandanlıq sisteminin yaradılması və ordu quruculuğunun hüquqi əsaslarının formalaşdırılması istiqamətində zəruri islahatlar həyata keçirildi.

1994-cü ildə diplomatik fəaliyyət nəticəsində Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə atəşkəs əldə olundu. 1994-cü il mayın 12-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində imzalanmış Bişkek Protokolu tərəflər arasında atəşkəs üçün əsas sənəd idi. Bu razılaşma sənədi cəbhə xəttində geniş miqyaslı hərbi əməliyyatların dayandırılmasına imkan yaratdı. Əldə olunmuş nisbi sabitlik isə Azərbaycan dövlətinə ordunun planlı şəkildə qurulması, hərbi strukturun təkmilləşdirilməsi və peşəkar kadr hazırlığının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirməyə şərait yaratdı. Atəşkəsin əldə olunması Silahlı Qüvvələrin planlı şəkildə inkişaf etdirilməsi üçün mühüm imkanlar yaratdı. Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan Ordusunda vahid komandanlıq sistemi möhkəmləndirildi, hərbi hissələrin strukturu təkmilləşdirildi və döyüş hazırlığının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Həmin dövrdə hərbi təhsil sistemin inkişafına xüsusi diqqət yetirildi, peşəkar zabit kadrlarının hazırlanması istiqamətində mühüm addımlar atıldı. Ordunun maddi-texniki bazası möhkəmləndirildi, hərbi hissələrin təminatı yaxşılaşdırıldı və vətənpərvərlik ruhu gücləndirildi.

Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu strategiyası, yalnız hərbi gücün artması ilə məhdudlaşmadı. Bu strategiya milli vətənpərvərlik ruhunun gücləndirilməsi, gənclərin hərbi xidmətə hazırlanması və ordunun xalqla sıx bağlılığını əhatə edirdi. Beləliklə, müasir Azərbaycan Ordusunun əsas ideoloji təməlləri məhz bu dövrdə qoyuldu.

2003-cü ildə xalqın böyük dəstəyi ilə Azərbaycan Respublikasına prezident seçilən İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu bu gün uğurla davam etdirir. Dövlət başçısı prezidentlik fəaliyyətinin ilk illərindən etibarən ordu quruculuğunu ölkə siyasətinin prioriteti kimi müəyyən etdi. Ali Baş Komandanın rəhbərliyi ilə ordu quruculuğu yeni mərhələyə qədəm qoydu və müasir dövrün tələblərinə uyğun davam etdirildi. Hərbi təhsil müəssisələrinin fəaliyyəti və peşəkar zabit kadrlarının hazırlanması istiqamətində zəruri islahatlar həyata keçirildi. Bu islahatlar nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı gücləndirildi, ordunun müasir silah və texnika ilə təchiz edilməsi, onların döyüş qabiliyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğun hərbi idarəetmə sisteminin formalaşdırılması istiqamətində ardıcıl islahatlar həyata keçirildi. Müdafiə sənayesinin inkişafı da bu siyasətin mühüm tərkib hissəsinə çevrilmişdir.

Azərbaycanın müdafiə sənayesi müəssisələrində müxtəlif növ hərbi texnika və avadanlıqların istehsalı təşkil olunmuş, Silahlı Qüvvələrin ehtiyaclarının müəyyən hissəsi artıq daxili imkanlar hesabına təmin edilməyə başlanmışdır. Eyni zamanda, orduda peşəkar kadr hazırlığı məsələsinə xüsusi diqqət yetirilir. Hərbi təhsil müəssisələrinin fəaliyyəti genişləndirilmiş, beynəlxalq hərbi əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir. Hərbi qulluqçularımız müxtəlif beynəlxalq təlimlərdə və sülhməramlı missiyalarda iştirak edərək müəyyən təcrübələr qazanmışlar. Uzun illər ərzində aparılan məqsədyönlü ordu quruculuğu siyasəti Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Müasir texnologiyalarla təchiz edilmiş, yüksək peşəkarlığa malik şəxsi heyətə sahib olan Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Azərbaycan Ordusunun bu gücü 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində başlayan Vətən müharibəsi zamanı öz parlaq təsdiqini tapdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın vətənpərvər oğulları döyüş meydanında igidlik, qəhrəmanlıq göstərərək qısa müddət ərzində torpaqlarımızı işğaldan azad etdi və ölkəmiz tarixi Zəfər qazandı. Bu Zəfəri qazanmaq heç də yaxın illərin hazırlıq prosesi deyildi. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin illərlə apardığı uğurlu siyasətin praktik nəticəsi idi. Azərbaycan Ordusunun müasir texnologiyalardan məharətlə istifadə etməsi və dəqiq hərbi planlaşdırma qələbənin reallığını əks etdirirdi.

Bu gün Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünün əsas təminatçısıdır. Silahlı Qüvvələrdə aparılan islahatlar, müasir hərbi texnologiyaların tətbiqi və peşəkar kadrların hazırlığı ordunun döyüş qabiliyyətinin davamlı şəkildə yüksəlməsini təmin edir. Azərbaycan Ordusunun güclənməsi həm də regionda davamlı sülhün və sabitliyin qorunmasına xidmət edir. Azərbaycan dövləti güclü orduya sahib olmaqla yanaşı, beynəlxalq hüquqa və ədalət prinsipinə əsaslanan sülh siyasətini də ardıcıl şəkildə davam etdirir.

Müasir Azərbaycan Ordusunun formalaşması uzunmüddətli və məqsədyönlü dövlət siyasətinin nəticəsidir. Bu siyasətin ideoloji və strateji əsasları Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş, Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə davam etdirilir. Bu gün Azərbaycan Ordusu ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün qoruyucu rəmzlərindən biridir. Ümummilli Lider Heydər Əliyevin strategiyası və Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində formalaşan rəşadətli ordumuz hər zaman Vətənimizin keşiyində inamla, qürurla dayanır və ölkəmizin ərazi bütövlüyünü və təhlükəsizliyini etibarlı şəkildə qoruyur.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun kursu keçirilib





Azərbaycan və NATO arasında "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na əsasən, Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində 1-ci səviyyəli qiymətləndirici kursu (ETC - 49 - Evaluator Training Course) keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Milli Müdafiə Universitetinin Hərb Oyunları Mərkəzində təşkil olunan kursda Azərbaycandan 22, NATO və tərəfdaş ölkələrdən isə 30 nəfər hərbi qulluqçu təlimatçı və dinləyici qismində iştirak edib. Kurs müddətində fərdi və qrup şəklində müxtəlif nəzəri və praktiki çalışmalar icra olunub.

Keçirilən kursun əsas məqsədi Alyansın Ortaq Qüvvələr Birliyinə bəyan edilən hissə və bölmələrinin qiymətləndirilməsi üçün ixtisaslı hərbi qulluqçuların sertifikatlaşdırılmasıdır.




## NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" (DEEP) çərçivəsində distant təhsilin inkişaf etdirilməsi məqsədilə Polşa Respublikasında işçi görüş keçirilib



Cari ilin 9-13 mart tarixlərində NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı"(DEEP) çərçivəsində distant təhsilin inkişaf etdirilməsi məqsədilə Polşa Respublikasında işçi görüş keçirilib. Sözügedən tədbirdə Milli Müdafiə Universitetinin nümayəndə heyəti iştirak edib.

Milli Müdafiə Universiteti xəbər verir ki, tədbir zamanı distant təhsilin təşkili və tətbiqi üçün mövcud texniki imkanlar, müasir rəqəmsal platformalar və proqram təminatları haqqında təqdimatlar keçirilib. Həmçinin istifadə olunan proqram təminatlarının funksional xüsusiyyətləri, texniki imkanları və tədris prosesində tətbiq perspektivləri MMU nümayəndə heyətinin diqqətinə çatdırılıb.

Tədbir çərçivəsində distant təhsil texnologiyalarının tətbiqi, tədris prosesinin rəqəmsallaşdırılması və müasir təhsil platformalarının imkanları barədə ətraflı müzakirələr aparılıb.

Qeyd olunub ki, müasir dövrdə distant təhsil texnologiyalarının tətbiqi təhsilalanlar üçün daha geniş imkanlar yaradır, tədris prosesinin çevikliyini artırır və biliklərə daha operativ çıxış imkanı təmin edir.

# Bayramlarınız mübarək, qalib Azərbaycan xalqı!

***Ən qədim bayramlardan olan Novruz baharın gəlişini, təbiətin oyanmasını və yeni ilin başlanğıcını bildirir. Novruz bayramının tarixi, onun qeyd olunma ənənələri və xalqımız üçün əhəmiyyəti dərin köklərə malikdir. Odlar yurdu Azərbaycanda bu ənənələrin yaşanması xalqımızın milli-mənəvi dəyərlərinə verdiyi dəyərin ən bariz nümunələrindən biridir. Novruz hər zaman xalqımız üçün birlik, əzmkarlıq və yenilməzlik rəmzi olub. Tarix boyu bütün çətinliklərə sinə gərən xalqımız bu bayramı hər zaman inam hissi ilə qeyd edib. Artıq 6 ildir ki, qalib Azərbaycan xalqı və Azərbaycan Ordusunun şəxsi heyəti bu bayramı işğaldan azad olunmuş, şanlı üçrəngli bayrağımızın dalğalandığı tarixi torpaqlarımızda Böyük Qələbə hissi ilə qeyd edir. Bu gün qəhrəman şəhidlərimizin, döyüşlərdə yaralanaraq sağlamlıqlarını itirmiş silahdaşlarımızın, hərbçilərimizin qanı, canı, şücaəti hesabına azad edilən yurd yerlərimizdə Novruz tonqalları qürur hissi ilə alovlandırılır. Əməkdaşlarımız Vətənimizin keşiyində mətinliklə dayanan hərbi qulluqçularımızla görüşərək onların Novruz bayramı ilə əlaqədar təəssüratlarını öyrəniblər. Onları oxucularımıza təqdim edirik.***

"Azərbaycan Ordusu"



**Kapitan Elşən İsazadə:**

- 2012-ci ildən ordu sıralarında zabit kimi xidmət edirəm. Təyyarəçi olmaq uşaqlıq arzum idi. Orta məktəbi 8-ci sinfə qədər oxuyandan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, daha sonra indiki Heydər Əliyev adına Hərbi İnstitutun "Hərbi Hava Qüvvələri" fakültəsinə qəbul oldum. Hərbi təyyarəçi olmaq qürurvericidir. Əvvəllər torpaqlarımız ermənilərin işğalı altında idi. Həmişə torpaqlarımızın azad edilməsinə mən də öz töhfəmi vermək istəmişəm. Tale elə gətirdi ki, İkinci Qarabağ müharibəsində iştirak etdim. Tərtər-Ağdam istiqamətində gedən döyüşlərdə pilot kimi uğurlu döyüş uçuşlarım olub. Təyin olunmuş hədəfləri dəqiqliklə sıradan çıxartmışam. Piyada bölmələrinin irəliləməsinə təyyarəçi kimi mənim də köməyim dəyib.

Bu gün ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Müharibə yoxdur. Xalqımız artıq beş ildən çoxdur ki, bayramlarını yüksək ovqatla qeyd edir. Novruz bayramı xalqımızın ən qədim bayramıdır. Bayrama qədər Su, Od, Yel və Torpaq çərşənbələrini qeyd edirik. Sonuncu Torpaq çərşənbəsindən sonra Novruz bayramını qarşılayırıq. Bu bayramda xalqımız öz qədim adət-ənənələrini yaşadır. Biz hərbçilər də milli dəyərləri həmişə uca tutmuşuq. Torpaq çərşənbəsində də tonqal qalayıb "ağırlığımız, uğurluğumuz odda yansın", - deyib tonqaldan tullanmışıq.

Mən də xalqımızı, silahdaşlarımı Novruz və müqəddəs Ramazan bayramları münasibətilə ürəkdən təbrik edirəm. Xalqımıza sülh, əmin-amanlıq arzu edirəm.

**Baş leytenant Elşad Məmmədov:**

- Təyyarəçi olmaqdan qürur duyuram. Döyüş helikopteri pilotu olmaq ikiqat qürurvericidir. Xidmət etdiyim hərbi hissə yarandığı gündən Vətənimizin ərazi bütövlüyünün müdafiəsində və ermənilərin işğal etdikləri torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Burada dəfələrlə uğurlu döyüş uçuşları həyata keçirmiş zabitlər var. Onların təcrübəsindən bəhrələnirik.

Xalqımızın dövlətçilik ənənəsi qədim dövrlərdən başlayıb. Ölkəmizə qarşı tarix boyu yadellilərin hücumları olub. Lakin xalqımız öz dövlətini, dövlətçiliyini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilib. Bahar bayramı da xalqımızın qədim bayramlarındandır. Bahar yazın gəlişi, bolluğun rəmzidir. Bu bayramın keçəl, kosa, bahar qızı kimi personajları var. Səməni göyərdilir, şəkərbura, paxlava bişirilir, xonça hazırlanır. Yazın gəlişi ilə bağlı əsrlərin o üzündən gələn bayatıları, mərasim nəğmələri əyləncələri ilə Baharın personajları insanların qəlblərinə yol tapır.



Hərbi hissəmizdə də Novruz bayramının gəlişi ilə bağlı tədbir keçirilib. Milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək xalqımızın qədimliyinin təcəssümüdür. Əziz hərbçilər, təbiətin oyanışı, bolluğun, bərəkətin rəmzi olan Bahar bayarımınız mübarək!

**Baş leytenant Elmin Vəlizadə:**

- Novruz bayramı xalqımızın həyat fəlsəfəsini, təbiətə bağlılığını və yenilənmə ruhunu özündə yaşadan müqəddəs bayramdır. Baharın gəlişi ilə birlikdə torpaq oyanır, həyat yenidən canlanır, insanlar gələcəyə daha böyük ümidlə baxırlar. Novruz yalnız bir bayram deyil, həm də xalqımızın milli kimliyini və mənəvi dəyərlərini yaşadan bir ənənədir.

Novruzun hər bir azərbaycanlının yaddaşında xüsusi yer tutduğunu qürur hissi ilə qeyd edirəm. Doğulduğum Qəbələ rayonunun Vəndam qəsəbəsində uşaqlıq illərimdə yandırılan tonqallar, açılan bayram süfrələri və bir araya gələn insanların sevinci bu bayramın mənim üçün ən əziz xatirələridir.



Bu gün isə qalib Azərbaycan Ordusunun zabiti kimi Vətənə xidmət etmək mənim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Vətən müharibəsinin iştirakçısı olaraq yaxşı anlayıram ki, xalqımızın gücü onun torpağına bağlılığında və milli ruhundadır. Bu ruh Azərbaycan əsgərini döyüş meydanında daha da möhkəmləndirdi və bizi Zəfərə apardı. Novruz bayramı bizə bir daha xatırladır ki, birlik, vətənpərvərlik və həmrəylik xalqımızın ən böyük gücüdür. Qəhrəman ordumuzun qazandığı möhtəşəm Zəfər sayəsində bu bayramı daha böyük qürur və sevinc hissi ilə qarşılayırıq.

Novruz tonqallarının alovunun hər bir evə istilik və sevinc gətirməsini arzulayıram. Müqəddəs Ramazan bayramının bərəkəti ailələrimizə xoşbəxtlik, yurdumuza isə daim sülh və əmin-amanlıq bəxş etsin. Bu əziz bayramlar münasibətilə bütün xalqımızı səmimi-qəlbdən təbrik edir, hər kəsə sağlamlıq və xoş günlər arzulayıram. Bayramımız mübarək.

**Baş leytenant Eşqin Əlirzayev:**

- Novruz bayramı əsrlərin yaddaşından süzülərək bu günümüzə gələn, xalqımızın ruhunu və milli dəyərlərini yaşadan ən gözəl bayramlardan biridir. Baharın gəlişi ilə təbiət yenilənir, torpaq nəfəs alır, insanların qəlbində isə yeni ümidlər doğur. Novruz bayramının xalqımız üçün həm mənəvi, həm də milli birlik rəmzi olduğunu xüsusi vurğulamaq istəyirəm.



Dünyaya göz açdığım Goranboy rayonunun Goranlı kəndində Novruz günlərinin özünəməxsus ab-havası var idi. Tonqal başına yığışan insanlar, evlərdə qurulan bayram süfrələri və hər kəsin üzündəki sevinc bu gün də yaddaşımdadır. Bu ənənələr insanlara həm keçmişi xatırladır, həm də gələcəyə inam aşılayır.

Vətən müharibəsinin iştirakçısı kimi xalqımızın iradəsinin və Vətən sevgisinin gücünü yaxından hiss etmişəm. Bu güc və birlik Azərbaycan Ordusunu qələbəyə aparan əsas amillərdən biri oldu. Bu gün Novruzu azad və bütöv Azərbaycanın vətəndaşları kimi qeyd etmək hamımıza böyük qürur və sevinc hissi bəxş edir.

Arzu edirəm ki, Novruzun işıqlı nəfəsi hər bir ocağa sevinc və bərəkət gətirsin. Xalqımızın birliyi daim möhkəm olsun, ölkəmiz isə hər zaman inkişaf və əmin-amanlıq yolu ilə irəliləsin.



Yaranmış fürsətdən istifadə edərək bütün xalqımızı həm Novruz bayramı, həm də on bir ayın sultanı Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər kəsə sağlamlıq, firavanlıq və uğurlu sabahlar arzulayıram.

**Kursant Xəlil Ağcabəyov:**

- Novruz bayramı bizim xalqımızın ən qədim və ən gözəl bayramlarından biridir. Mən Xaçmaz rayonundanam və uşaqlıqdan bu bayramın xüsusi ab-havasını hiss etmişəm. Novruz yaxınlaşdıqca evlərdə hazırlıq görülər, səməni göyərdilər, süfrələr bəzənərdi. Bu günlərdə insanlar bir-birinə daha çox diqqət göstərər, küsülülər barışar, qapılar hər kəsin üzünə açıq olardı. Bu bayram bizim xalqımızın mərhəmətini, qonaqpərvərliyini və birlik ruhunu ən gözəl şəkildə əks etdirir.

Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı kimi Novruz bayramını tam fərqli duyğularla qarşılayıram. Çünki biz artıq Vətənə xidmət yolunu seçmiş gənclərik. Hər birimiz anlayırıq ki, xalqımızın bu gözəl bayramı təhlükəsiz və əmin-amanlıq şəraitində qeyd etməsi üçün Azərbaycan Ordusunun hərbi qulluqçuları daim hazır vəziyyətdə dayanırlar.



Novruz bayramı mənim üçün həm də yenilənmə və ümid deməkdir. Bu bayram bizə xatırladır ki, qış nə qədər sərt olsa da, bahar mütləq gəlir. Eyni ilə xalqımızın tarixində olduğu kimi. Azərbaycan xalqı çətin sınaqlardan keçsə də, hər zaman yenidən dirçəlməyi bacarıb. Bu gün biz azad və müstəqil ölkədə yaşayırıq və bu azadlığın qorunması bizim müqəddəs borcumuzdur.

Bu əziz bayramlar münasibətilə bütün Azərbaycan xalqını, xüsusilə də Vətənimizin keşiyində dayanan hərbçilərimizi səmimi-qəlbdən təbrik edirəm. Arzu edirəm ki, hər bir ailənin ocağı daim isti, süfrələri bol-bərəkətli olsun. Novruzun gətirdiyi bahar sevinci, Ramazan bayramının verdiyi ruzi-bərəkət hər bir evə sevinc və xoşbəxtlik gətirsin.

**Kursant Məhəmməd Kərimli:**

- Novruz bayramı mənim üçün uşaqlıq xatirələri ilə dolu olan çox əziz bir bayramdır. Bizim bölgədə Novruz xüsusi təntənə ilə qeyd olunur. Bayramdan əvvəl insanlar evlərini təmizləyir, həyətlərdə tonqallar qalayır, uşaqlar böyük sevinclə tonqal üzərindən tullanır, sanki bütün ağırlıqları arxada qoyaraq yeni ilə təmiz və saf ruhla qədəm qoyurlar.

Novruz bayramının ən gözəl cəhətlərindən biri də insanların bir araya gəlməsidir. Bu bayramda böyüyə hörmət, kiçiyə qayğı, qohumlar və dostlar arasında səmimiyyət daha da güclənir. Mən hesab edirəm ki, Novruz xalqımızın milli ruhunu və mənəvi zənginliyini özündə yaşadan ən dəyərli bayramlardan biridir.

(Ardı 5-ci səhifədə)

# Bayramlarınız mübarək, qalib Azərbaycan xalqı!



(Əvvəli 4-cü səhifədə)

Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan bir kursant kimi Novruz və Ramazan bayramlarını daha böyük qürur hissi ilə qarşılayıram. Çünki biz Vətənə xidmət etməyə hazırlaşan gənclərik. Ən böyük arzumuz Azərbaycan Ordusunun sıralarında ləyaqətlə xidmət etmək, ölkəmizin müstəqilliyini və bütövlüyünü qorumaqdır.

Novruz bayramı həm də ümid və gələcəyə inam deməkdir. Bu bayram bizə göstərir ki, hər yeni bahar yeni başlanğıclar gətirir. İnanıram ki, Azərbaycan gəncliyi hər zaman ölkəmizin inkişafı və güclənməsi üçün çalışacaq.

Bu müqəddəs bayramlar münasibətilə bütün xalqımızı ürəkdən təbrik edirəm. Qoy Novruzun odu hər bir evə istilik, hər bir ürəyə sevinc gətirsin, ölkəmizdə daim sülh, əmin-amanlıq və firavanlıq hökm sürsün. Hər bir azərbaycanlı ailəsinin süfrəsi bol olsun, ocaqları heç vaxt sönməsin.

**Kursant Qərənfil Orucəliyeva:**

- Hər bir gənc vətənpərvər olmalıdır. Ana Vətənimiz Azərbaycanı canımızdan artıq sevməliyik. Onun daha da çiçəklənməsi üçün var gücümüzlə çalışmalıyıq. Biz gənclər bu müqəddəs amallarla, duyğularla yaşayırıq. Axı gənclər Vətənin azad, xoşbəxt gələcəyi deməkdir. Doğma torpaqlarımız düşmən işğalından azad olunandan sonra bu müqəddəs duyğular mənim dünyagörüşümdə əsas rol oynadı. Gələcəkdə hərbçi olacağımı, Azərbaycan Ordusunun sıralarında şərəflə xidmət edəcəyimi qarşıma məqsəd qoymuşam. Vətənə xidmət yolunu seçmişəm. Bu gün kursant adını daşımağımla qürur duyuram. İlk gündən dərslərimizə məsuliyyətlə yanaşır, verilən tapşırıqları vaxtında yerinə yetirir, hərbi bacarığımızı, ixtisas üzrə biliklərimizi daima artırmağa çalışırıq. Peşəkar hərbçi olmaq üçün həmişə oxumalı, öyrənməli çətinliklərdən qorxmamalıyıq. Bu günün kursantı sabahın zabitidir. Hər birimiz xalqımızın milli-mənəvi dəyərlərini öyrənməyə, qorumağa, onları layiqincə təbliğ etməyə borcluyuq. Xalqımız 5 ildən artıqdır ki, əziz və müqəddəs olan bütün bayramlarını yüksək coşqu, sevinc hissi ilə keçirir. Bayram süfrələri açılır. Novruz bayramı təbiətin oyanışından, yazın gəlişindən xəbər verir. Xalqımız əsrlərdir ki, milli adət və ənənələrini qoruyub saxlayıb, bu günümüzə gətirib çıxardıb. Bütün kursantları xalqımızın əziz və müqəddəs bayramları sayılan Novruz və Ramazan bayramları münasibətilə təbrik edir, onlara dərslərində müvəffəqiyyətlər arzulayıram.

**Kursant Nazlı Məhərrəmova:**

- Kursant adını daşımaqdan qürur hissi keçirirəm. Xoşbəxtəm ki, azad, müasir, suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycanın vətəndaşıyam. Sevinirəm ki, bir neçə ildən sonra qüdrətli, qalib Azərbaycan Ordusunun sıralarında zabit kimi Vətənə xidmət edəcəm. Hər bir gəncin ən böyük arzusu seçdiyi peşəsinin sirlərini dərindən öyrənmək, gələcəkdə ixtisaslı kadr kimi yetişməkdir. Biz kursantlar da gələcəkdə peşəkar hərbçi olmaq üçün məsuliyyətli, intizamlı, ciddi olmalı, verilən tapşırıqları yerinə yetirməli, ixtisas üzrə biliklərimizi daima artırmalıyıq. Vətəni qorumaq, onun müdafiəsində dayanmaq şərəfdir. İşğaldan azad olunmuş ərazilərimizdə bu günlər bayram ovqatı yaşanır. Novruz tonqalları alovlanır. Tarixi yurd yerlərindən məcburi köçkün olmuş həmvətənlərimiz öz elinə, obasına qayıdır. Onların sevinci bütün Azərbaycan xalqının sevincidir. Qoy həmişə xalqımız bayramlarını belə sülh, əmin-amanlıq şəraitində qeyd etsin! Torpaqlarımızda bir daha müharibə olmasın!





**Əsgər Fuad Ağayev:**

- Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Çalxanqala kəndində dünyaya göz açmışam. Doğma kəndimdə böyüyərək xalqımızın milli-mənəvi dəyərləri və zəngin adət-ənənələri ilə tərbiyə almışam.

Novruz bayramı münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Novruz xalqımızın əsrlər boyu yaşatdığı ən qədim və ən əziz bayramlardan biridir. Bu bayram baharın gəlişini, təbiətin yenilənməsini, insanların qəlbində sevinc və ümidin artmasını ifadə edir. Novruz günlərində insanlar bir-birinə daha çox diqqət və qayğı göstərir, küsülülər barışır, ailələr bir araya gələrək bayram sevincini bölüşürlər.

Bu il isə Novruz bayramı müqəddəs Ramazan bayramı ilə eyni vaxta təsadüf edərək bayram sevincimizi daha da artırır. Bu gözəl günlərin bir-birinə qovuşması hər birimiz üçün xüsusi mənəvi dəyər daşıyır. Arzu edirəm ki, bu mübarək günlər xalqımıza xeyir-bərəkət, mərhəmət və birlik gətirsin.

Diləyirəm ki, Novruzun yenilənmə ruhu və Ramazan bayramının mənəvi saflığı hər bir ailəyə sevinc, bolluq və firavanlıq bəxş etsin. Qoy evlərimizdən xoşbəxtlik əskik olmasın, süfrələrimiz daim bol olsun, ölkəmizdə sülh və əmin-amanlıq hökm sürsün.

Bir daha bütün xalqımızı Novruz və Ramazan bayramları münasibətilə səmimi-qəlbdən təbrik edir, hər kəsə möhkəm cansağlığı, xoşbəxtlik və firavan həyat arzulayıram.

**Əsgər Elvin İbayev:**

- Ağdam rayonunun Şurabad kəndində dünyaya gəlmişəm. Doğulduğum torpağın milli dəyərləri və adət-ənənələri ilə böyümüşəm. 14 iyul 2025-ci il tarixində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdam rayon şöbəsindən hərbi xidmətə yola düşmüşəm.



Baharın gəlişini müjdələyən Novruz bayramı münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Xalqımızın əsrlərdən bəri yaşatdığı bu gözəl bayram təbiətin yenilənməsini, insanların qəlbində ümid və sevincin artmasını ifadə edir. Novruz günlərində insanlar bir-birinə daha yaxın olur, birlik və həmrəylik hissi daha da güclənir.

Bayramlar ovqatımıza xoş təsir edir. Bu il isə Novruz bayramının müqəddəs Ramazan bayramı ilə eyni vaxta təsadüf edir. Bu mübarək günlərin qovuşması insanlara xeyirxahlıq, mərhəmət və birlik duyğularını aşılayır.

Ümid edirəm ki, bu iki əziz bayramın bəxş etdiyi sevinc və mənəvi dəyərlər hər bir ailəyə xoşbəxtlik, bolluq və firavanlıq gətirəcək. Qoy ölkəmizdə daim sülh və əmin-amanlıq olsun, xalqımızın ocaqları həmişə isti, süfrələri isə bol olsun.

Bütün xalqımızı Novruz və Ramazan bayramları münasibətilə səmimi-qəlbdən təbrik edir, hər kəsə sağlamlıq və xoş günlər arzulayıram.

**Əsgər Fuad Rüstəmov:**

- Doğma xalqım və şanlı ordumun hər bir üzvünü Novruz və Ramazan bayramları münasibətilə ürəkdən təbrik edirəm. Mən Vətən müdafiəçisi olaraq bu gözəl günləri ailəmdən uzaqda qarşılamağıma baxmayaraq, bura da mənim üçün doğmadır, çünki Vətəndir. Novruzun bahar təravəti və yenilənmə ruhu, Ramazanın isə müqəddəsliyi və saflığı hər birimizin həyatına nur gətirsin. Qoy süfrələriniz bol olsun, dualarınız hər zaman qəbul olunsun. Bu iki müqəddəs bayramın bir araya gəlməsi bizə həm sevinc, həm də mənəvi güc bəxş edir. Vətən keşiyində dayanarkən sizin etimadınız mənə ən böyük dayaqdır. Arzu edirəm ki, evlərinizdə daim sevgi, birlik və bərəkət olsun. Mən də tezliklə sizinlə birlikdə bu bayramları qeyd etməyi səbirsizliklə gözləyirəm. Hər birinizə sağlamlıq, uğur və xoş günlər arzulayıram. Bayramlarınız mübarək!



**Əsgər Nihat Bayramov:**

- Dəyərli doğmalarım, xidmət yoldaşlarım və əziz xalqım. Sizi Novruz və Ramazan bayramları münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Ordu sıralarında Vətənə müqəddəs borcunu ödəyən əsgər kimi bu əziz günləri xidmət başında keçirmək böyük qürurdur. Novruzun gətirdiyi sevgi və bərəkət, Ramazanın verdiyi səbir və mərhəmət həyatınıza işıq saçsın. Qoy etdiyiniz dualar qəbul, tutduğunuz oruclar savab olsun. Bu bayramlar bizə həm milli birliyimizi, həm də mənəvi sarsılmazlığımızı xatırladır. Sizin dəstəyiniz və xoş arzularınız biz əsgərlərə böyük ruh yüksəkliyi verir. Arzu edirəm ki, ailənizlə birlikdə xoş, unudulmaz bayram anları yaşayasınız. Vətənimizin əmin-amanlığı üçün xidmət etmək mənim üçün böyük şərəfdir. İnşallah, tezliklə sizinlə bir araya gəlib bu bayram sevincini bölüşərəm. Bayramlarınız mübarək, Allah sizi qorusun!





**Əsgər Asif Abdullayev:**

- Əziz valideynlərim, doğmalarım və qalib xalqım. Sizi xalqımızın ən qədim və əziz bayramlarından biri olan Novruz, eləcə də müqəddəs Ramazan bayramları münasibətilə ürəkdən təbrik edirəm. Bu bayramlar əsrlərdir xalqımızın zəngin adət-ənənələrini yaşadan, birlik və bərabərliyi möhkəmləndirən müqəddəs dəyərlərdir. Fəxr edirəm ki, mən qalib Azərbaycan Ordusunun əsgəriyəm. Bu gün işğaldan azad olunmuş torpaqlarımızda xidmət edir, Vətənimizin keşiyində əzmlə dayanıram. 30 ilə yaxın düşmən işğalında qalan əzəli torpaqlarımız rəşadətli Ordumuz tərəfindən azad edildi. Xalqımız haqq savaşında böyük Zəfər qazandı.

Yağılar tərəfindən dağıdılmış şəhər və kəndlərimizdə həyat yenidən canlanır. Ən sevindirici məqamlardan biri isə illərlə həsrətində olduğumuz Novruz tonqallarının artıq azad torpaqlarımızda alovlanır. Xalqımız 6 ildir ki, tarixi torpaqlarımızda bayramları böyük coşqu ilə qeyd edir.

Vətənin keşiyində dayanan bir əsgər olaraq hər birinizə sülh, əmin-amanlıq, bol ruzi-bərəkət və sevinc dolu günlər arzulayıram.

Bayramlarınız mübarək!

**Qeyd**: Əminik ki, Azərbaycan Ordusunun şəxsi heyəti bundan sonra da Müzəffər Ali Baş Komandanına və Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə sadiq qalaraq, döyüş və mənəvi-psixoloji hazırlıqlarını daha da gücləndirəcək, üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı ərazilərimizdə öz mövqelərini daha da möhkəmləndirməklə bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa layiqli töhfələrini verəcəkdir. Üzərinə düşən tarixi missiyanı layiqincə yerinə yetirən, şəhidlərimizin qisasını döyüş meydanında alan və xalqımıza Böyük Qələbə sevincini yaşadan Ordum, bayramın mübarək!

## XTQ-nin bölmələrində inspeksiya yoxlamaları keçirilib

2026-cı ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hərbi hissəsində inspeksiya yoxlaması keçirilib.

Əvvəlcə yoxlamanın başlanması ilə əlaqədar olaraq Döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

Plana uyğun olaraq şəxsi heyətə sıra baxışı keçirildikdən sonra hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi olub.

Hərbi hissədə qərargah fəaliyyəti, döyüş hazırlığı və maddi-texniki təminatın vəziyyəti təftiş edilib. Xüsusi təyinatlı taborlar həyəcan siqnalı ilə qaldırıldıqdan sonra ərazidə onların taktiki fəaliyyətləri, səhra vərdişləri və operativ hazırlıq səviyyələri təlim-döyüş tapşırıqlarına əsasən yoxlanılıb.

Döyüş hazırlığı tədbirlərinin daha səmərəli təşkili, hərbi qulluqçuların peşəkarlığının artırılması və xidmətin müasir dövrün tələblərinə uyğun aparılması istiqamətində aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verilib.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan hərbi polisinin nümayəndə heyəti Bolqarıstana səfər edib







*Azərbaycan və Bolqarıstan arasında ikitərəfli əlaqələrin inkişaf proqramına uyğun olaraq Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin bir qrup nümayəndə heyəti bu ölkənin paytaxtı Sofiya şəhərinə səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsi rəisinin müavini - Hərbi Polis İdarəsinin rəisi general-mayor Elgün Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Bolqarıstan Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin və Regional Hərbi Polis Bölməsinin inzibati binalarını ziyarət edib, hərbi polis strukturlarının təşkili, idarəetmə mexanizmləri və gündəlik xidməti fəaliyyətin xüsusiyyətləri ilə yaxından tanış olub.

Həmçinin Bolqarıstan hərbi polisinin sülh və müharibə dövründə üzərinə düşən vəzifələr, NATO çərçivəsində yerinə yetirdiyi fəaliyyətlər barədə təqdimatlar verilib.

Görüşdə hərbi polis sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb. Qarşılıqlı təcrübə mübadiləsinin və peşəkar hazırlığın artırılması, eləcə də birgə fəaliyyət imkanlarının genişləndirilməsi məsələləri xüsusi vurğulanıb.

Səfər iki ölkə arasında hərbi polis fəaliyyətləri sahəsində əməkdaşlığın genişləndirilməsi və təhlükəsizlik sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

## Novruz bayramı münasibətilə hərbi hissədə ağacəkmə keçirildi





Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqının rəhbər heyəti Novruz bayramı münasibətilə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində oldu. Açıq səma altında əsl Novruz ovqatı vardı. Hərbi hissədə çalışan mülki işçilərlə yanaşı, hərbi qulluqçular da bayram şənliyinə toplaşmışdılar.

Tədbir açıq elan olunmazdan əvvəl Ulu Öndər Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Polkovnik-leytenant Zakir Əmirov tədbir iştirakçılarını salamladı. Zabit qeyd etdi ki, xalqımızın ən qədim bayramlarından olan Novruz bayramını xalqımız son illərdə təbəssümlə, könül xoşluğu ilə qeyd edir. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında xalqımızın igid oğullarının şücaəti sayəsində ölkəmizin ərazi bütövlüyünün təmin olunduğunu bildirdi. Novruz bayramı münasibətilə hərbi hissəyə gələn Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayevə və rəhbərlik etdiyi kollektivə təşəkkür etdi.

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev hərbi hissədə çalışan mülki işçiləri, hərbi qulluqçuları Baharın gəlişi münasibətilə təbrik etdi. O, həmkarlar ittifaqının fəaliyyətindən, son illərdə rəhbərlik etdiyi təşkilatın işindən danışdı. Müntəzəm olaraq hərbi hissələrdə mülki işçilərlə keçirilən səmərəli görüşlərdən bəhs etdi. Həmişə olduğu kimi, bu dəfə də müqəddəs Ramazan və Novruz bayramları ərəfəsində hərbçilərlə görüşdən məmnun qaldığını bildirdi. Həmkarlar təşkilatının üzvləri bu dəfə də hərbi hissədə hərbi qulluqçularla bayramı birgə keçirməyi özlərinə mənəvi borc bildilər. Onlar hərbçilərlə görüşə əli boş gəlmədiklərini və hərbi hissəyə dəyərli hədiyyə gətirdiklərini bildirdilər.

Vətən Müharibəsi Qəhrəmanı polkovnik Rəşad Nadirov qonaqlara səmimi münasibətə görə təşəkkür etdi. Bayram ərəfəsində onları hərbi hissədə görməkdən məmnun qaldığını bildirdi.

Sonra tonqal qalandı. Mülki işçilərlə hərbçilər tonqalın ətrafında rəqs edib yallı getdilər.



Novruz bayramını tərənnüm edən musiqilər səsləndi. Masaları bolluğun, ruzi-bərəkətin rəmzi olan səməni, Novruzun şirniyyatları - şəkərbura, paxlava və quru meyvələrlə zəngin xonçalar bəzəmişdi. Ağacların çiçəklənməsi Baharın gəlişindən xəbər verirdi. Mülki işçilər hərbçilərlə bayramın adət-ənənəsinə uyğun yumurta toqquşdurdular. Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqının rəhbər heyəti hərbçilərlə hərbi hissənin həyətində onlarla ağac əkdi.

Sonda hərbi hissənin rəhbərliyi ilə birlikdə qonaqlar hərbi hissədə yaradılmış şəraitlə tanış oldular. Xatirə şəkilləri çəkdirildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Məsuliyyətli xidmət yolu

Texnikaya böyük məsuliyyət və həvəslə texniki qulluq göstərərək seçilən hərbi qulluqçulardan biri də "N" hərbi hissəsində xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elməddin Yadigar oğlu Cəlilovdur. Onunla yaxından tanış olduq.

6 mart 1985-ci il tarixində Goranboy rayonunda anadan olan Elməddin Cəlilov Azərbaycan Ordusunun müxtəlif hərbi hissələrində xidmət keçib. Üç oğul atası olan Elməddin Cəlilov hazırda Azərbaycan Ordusunun sıralarında xidmətini şərəflə davam etdirir. Vətənə bağlılığı, yüksək hərbi intizamı və peşəkarlığı ilə seçilən hərbi qulluqçularımızdan biridir. İdarə etdiyi avtomobilin texniki vəziyyəti ilə maraqlandıqda inamla bildirdi ki, texnika tam saz vəziyyətdədir və istənilən an tapşırıqların icrası üçün istifadəyə hazırdır.

Hərbçi peşəsini seçməsinin səbəbi ilə maraqlandıqda isə Elməddin Cəlilov qeyd etdi ki, Vətəni sevmək və xalqına az da olsa fayda vermək hər bir vətəndaşın borcudur. Onun sözlərinə görə, hər kəs bu sevgini öz əməli ilə göstərir.



***Silah və texnikanın daim saz vəziyyətdə saxlanılması, onlara vaxtında texniki qulluq göstərilməsi və qarşıda duran tapşırıqların fasiləsiz yerinə yetirilməsi Azərbaycan Ordusunun döyüş qabiliyyətinə təsir edən mühüm amillər sırasındadır.***

"Seçdiyimiz peşəyə uyğun olaraq hər birimiz doğma Vətənimizə xidmət edirik. Azərbaycanın hər qarışını qorumaq, lazım gələrsə, sinəmi sipər edib müdafiə etmək mənim də əsas amalım olub. Məhz bu düşüncə mənim peşə seçimimə təsir göstərib. Həmişə çalışıram ki, xidmətimlə başqalarına nümunə olum".

Öz ixtisası haqqında danışan hərbi qulluqçu qeyd etdi ki, sürücü ona həvalə olunan hərbi nəqliyyat vasitəsini müxtəlif hava şəraitində və fərqli relyefə malik ərazilərdə təhlükəsiz şəkildə idarə etməyi bacarmalı, eyni zamanda, texnikaya vaxtında və düzgün texniki qulluq göstərməlidir.

Onun sözlərinə görə, hərbi sürücülük xüsusi məsuliyyət tələb edən peşədir: "Hərbi sürücü olmaq ikiqat məsuliyyət deməkdir. Çünki hərəkət zamanı gözlənilməz vəziyyətlər yarana bilər. Belə hallarda qəfil meydana çıxan nasazlıqları operativ şəkildə aradan qaldırmağı, çətin şəraitdən, habelə, döyüş meydanından və ya atəş altından çıxmağı bacarmalısan. Bunun üçün daim öz üzərimizdə işləməli, həm nəzəri, həm də praktiki biliklərimizi artırmalıyıq. Sürücü həm məsuliyyəti, həm peşəkarlığı, həm də təmkini ilə seçilməli, eyni zamanda, yol hərəkəti qaydalarını yaxşı bilməli və onlara ciddi şəkildə riayət etməlidir".

Söhbət zamanı öyrəndik ki, hərbi qulluqçumuz 44 günlük Vətən müharibəsinin, əmisi Polad Cəlilov isə Birinci Qarabağ müharibəsinin iştirakçıları olublar. Onlar qarşılaşdıqları çətinliklərə baxmayaraq döyüşlər zamanı təminatların daşınması ilə bağlı tapşırıqları vaxtında və məsuliyyətlə yerinə yetiriblər. Torpaqlarımızın işğaldan azad olunmasında az da olsa payının olmasını isə böyük qürur hissi ilə qeyd edir.

Elməddin Cəlilovla söhbətimiz xoş təəssürat yaratdı. Bir daha əmin olduq ki, Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçular ixtisaslarından asılı olmayaraq öz peşələrini dərindən mənimsəyir və qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirirlər.

Belə hərbi qulluqçuların xidməti bir daha göstərir ki, Azərbaycan Ordusunun gücü müasir silah və texnika ilə yanaşı, həm də Vətənə sədaqətlə xidmət edən igid oğullarımızın məsuliyyəti, peşəkarlığı və vətənpərvərliyi ilə ölçülür. Elməddin Cəlilov kimi hərbçilər öz fədakar xidmətləri ilə ordumuzun gücünə güc qatır, Azərbaycan əsgərinin daim Vətənin keşiyində ayıq-sayıq dayandığını bir daha sübut edirlər.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

---

**(Əvvəli 1-ci səhifədə)**

*Tikdim ki, izim qala...*

# Xan qalası - Şahbulaq



Elmi ədəbiyyatda Şahbulaq qəsri adı ilə tanınan abidə əslində iri qəsr kompleksinin içərisində olub. Onun yanında xanın iqamətgahı olub. Bu qala tipli saray kompleksi yerli inşaat materialları olan əhəngdən və dağ daşlarından, Şərq memarlıq üslubunda, orta əsr qalalarına məxsus əzəmətli görünüşdə inşa olunub.

Bayat döyüşündən sonra Pənahəli xan qərara gəlib ki, xanlığa daha etibarlı bir qala lazımdır. Çünki Bayat qalasının strateji mövqeyi zəif, iqlimi isti olduğundan, orada uzun müddət böyük hərbi qüvvə saxlamaq mümkün deyildi. Buna görə də Pənahəli xanın göstərişi ilə Ağdamın bir neçə kilometrliyində yerləşən Şahbulaq adlanan yerdə inşaat işlərinə başlanılıb və kiçik qalaşəhər halına salınıb. Tarixçi Mirzə Adıgözəl bəyin yazdığına görə Pənahəli xan bu işləri 1751-1752-ci illərdə bitirərək oranı özünə iqamətgah edib.

Şahbulaq qalasının coğrafi mövqeyi əlçatmaz və ağaclarla əhatəli olan bir ərazi idi. Qala hərtərəfli sıldırım qayalarla əhatələnib.



Şahbulaq qalası Ağdamın 10 kilometrliyində dağların ətəklərində bol çeşməli bir ərazini təşkil edirdi. Qalanın daxilində bulaqların çoxluq təşkil etməsi məlumatı o dövr müəlliflərinin əsərlərində də yer alıb. Buna görə də qalada su quyularının qazılmasına o qədər də ehtiyac yox idi. Umumilikdə xanlığın mərkəzi olacaq qalanın burada salınması hər cəhətdən əlverişli idi.

Qala inşa planına əsasən düzbucaqlı formada inşa edilib. Kompleksin ətrafı mühafizə divarları, dairəvi və yarımsilindrik formalı nəzarətçi qüllələri ilə əhatə olunub. Qalanın divarlarının hündürlüyü 7 metr, qüllənin hündürlüyü isə 8,5 metrdir. Kompleksin girişi şərq divarının mərkəzindən qoyulub. Qalanın şimali qərbində bulağın yaxınlığında kiçik ibadət zalından və külfərəngidən ibarət çox da böyük olmayan Şahbulaq məscidi də inşa edilib.

Qalanın içərisində divar boyunca tikilən birmərtəbəli otaqların damı xarici hücumlardan müdafiə üçün əlverişli pilləkan rolunu oynayırdı. Otaqların örtük konstruksiyası baş tağbəndlərdir. Bütünlüklə yarıyonulmuş daşdan tikilmiş Şahbulaq qalası Azərbaycan xanlıqları dövrünün hərbi memarlığının sadə nümunələrindən biridir. Qarabağın tarixi ilə maraqlanan bütün müəlliflərin (yerli və xarici olmaqla) əsərlərində Şahbulaq qalasının adı vurğulanıb və bu abidənin tarixi xatırlanıb.

Şahbulaq qalasında daşdan tikilmiş məscid, hamam, şəhər evləri və bazar yerləşib. Şahbulaqda iki qəsr - içqala və xarici qala olub. İç-qəsr təpənin üstündə gursulu bulağın yanında salınıb. Pənahəli xanın iqamətgahı yonulmamış daşlardan düzbucaqlı, 8 pilləli şəkildə tikilib. İqamətgahın möhkəm və hündür divarları olub.

İç-qəsr düzbucaqlı şəklində idi, hər küncdə bir qüllə, şərq tərəfi istisna olmaqla, hər bir tərəfin ətrafında bir yarımdairəvi formalı qülləsi var. Xarici qüllələr və divarların yuxarı hissəsi "diş-diş" idi. Bütün divarlar və qüllələr boyu döyüş mazğalları, mazğalların altında birmərtəbəli binalar mövcud idi. Qəsrin girişi şərq tərəfdəndi və ikimərtəbəli prizmaşəkilli tikili ilə müdafiə olunurdu. Giriş kiril əlifbasındakı "Г" hərfi formasında idi. Prizmatik tikili, səkkizinci, əsas qüllə idi və bütün Şahbulaq qalası üzərində yüksəlib.

Şahbulaq qalasının müdafiə planı güclü və mürəkkəb hazırlanmışdı. Qala dəfələrlə şiddətli hücumlara məruz qalıb. Vaxtilə Qacar şahzadəsi Abbas Mirzə də başda olmaqla, bir neçə hökmdarın qalaya hücumu uğursuzluqla nəticələnib.

1805-ci il mayın 14-də Qarabağ xanı İbrahimxəlil xan Çar Rusiyası ilə Kürəkçay müqaviləsini imzalayıb. Bunu görən Abbas Mirzə 1805-ci ilin iyunun ortalarında Qarabağa daxil olub. Qacar qoşunu tərəfindən Şahbulaq qalası mühasirəyə alınıb. Rus qoşunlarının təslim olmadığını görən Abbas Mirzə geri çəkilməyə məcbur olub.



Rusiya hərb tarixçisi Vasili Potto Qacar şahzadəsinin bu yürüşündən sonra yazır ki, "Şahbulaq qalası İran vəliəhdi Abbas Mirzənin yürüşündən sonra yararsız vəziyyətə düşmüşdür. Bu vəziyyətdə olmasına baxmayaraq qala tipli qəsrdə yenidən tikinti işləri başlamışdır. Qalanın müdafiə məqsədli planı yaxşı hazırlanmışdır. Həmçinin qalanın coğrafi mövqeyi əlçatmaz və memarlıq strukturu da yaxşıdır".

Bu memarlıq abidəsi Birinci Qarabağ müharibəsinə qədər yaxşı mühafizə edilib saxlanıb. Sovet dövründə Ağdam rayonuna gələn turistlər bu abidəni ziyarət edirdilər. Abidə kompleksi həmişə diqqət mərkəzində olduğundan bir növ Ağdam rayonunun simvoluna çevrilmişdi.

Ağdam rayonu 1993-cü ildə ermənilər tərəfindən işğal edildikdən sonra Şahbulaq qala-kompleksin daxilindəki məscid, hamam, xan sarayı, bulaqlar və bəzi yaşayış evləri sökülüb dağıdılıb. Yalnız qala-kompleksin mühafizə divarları saxlanılıb. İşğal dövründə ermənilər qaladan kilsə kimi istifadə ediblər.

274 yaşlı Şahbulaq qalası illərin sərt sınaqlarına sinə gərərək özünü də, tarixini də, izini də qoruyub. İndi füsunkar təbiətin qoynunda yerləşən bu qocaman qala azad Ağdamın qoynunda yeni dövrünü yaşayır.

**"Azərbaycan Ordusu"**

# Milli Müdafiə Universitetinin nümayəndələri maarifləndirici görüşlər keçiriblər



*Milli Müdafiə Universitetinin nümayəndələri Bakı şəhərində yerləşən bir sıra ümumtəhsil müəssisələrində maarifləndirici və təbliğat xarakterli görüşlər keçiriblər.*

Milli Müdafiə Universiteti xəbər verir ki, görüşlər zamanı şagirdlərə ölkəmizdə hərbi təhsilin inkişafı, hərbi qulluqçu peşəsinin şərəfli və məsuliyyətli bir peşə olması, həmçinin Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələri, qəbul qaydaları və mövcud ixtisaslar barədə ətraflı məlumat verilib. Nümayəndələr tərəfindən şagirdlərə hərbi təhsil müəssisələrində yaradılmış müasir tədris şəraiti, kursantların hazırlıq prosesi, eləcə də onların gələcək karyera imkanları haqqında təqdimat keçirilib.

Tədbir çərçivəsində şagirdləri maraqlandıran suallar cavablandırılıb, onlara hərbi təhsilə qəbulun mərhələləri, fiziki və nəzəri hazırlığın əhəmiyyəti barədə məlumat verilib. Bildirilib ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların dövlətə və xalqa sədaqətli hərbçi kimi yetişməsi hərbi təhsil sisteminin əsas prioritetlərindən biridir.

Sonda şagirdlərə hərbi təhsil müəssisələrinə qəbul imkanları ilə bağlı məlumatlandırıcı materiallar təqdim olunub və bu cür görüşlərin gənclərin gələcək peşə seçimində mühüm rol oynadığı vurğulanıb.

## *Hərbi texnikalar, silahlar*

# Sandcat üzərində 120 mm-lik SPEAR minaatanı

120 mm-lik SPEAR minaatanı düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək, o cümlədən motoatıcı bölmələrin döyüş dəstəyini təmin etmək imkanına malikdir.

Sandcat üzərində quraşdırılmış minaatanın maksimal atış uzaqlığı 6500 metrdir. Qurğunun atış tempi isə dəqiqədə 12-14 minadır. Bir minanın məhvetmə radiusu 50 metrdir. Avtomobil texnikasının ümumi çəkisi isə 8760 kiloqramdır. Avtomobil Azərbaycan Ordusunun silahlanmasında yer alır.

**"Azərbaycan Ordusu"**



# İdman

## Güləş üzrə yığmalarımız Serbiyada 16 medal qazanıblar




Serbiyanın Zrenyanin şəhərində 2026-cı ilin 9-15 mart tarixlərində keçirilən U-23 Avropa çempionatında Azərbaycan güləşçiləri bu mötəbər turnirdə yüksək əzmkarlıq və peşəkarlıq nümayiş etdirərək ümumilikdə16 medal (3 qızıl, 7 gümüş, 6 bürünc) qazanıblar. Təmsilçilərimiz hər üç növdə - sərbəst, yunan-Roma və qadın güləşində əzmlə mübarizə apararaq fəxri kürsüyə yüksəlməyi bacarıblar.

**Qızıl medal** (Avropa çempionu): Ali Tsokayev (sərbəst güləş, 92 kq), Elmin Əliyev (yunan-Roma güləşi, 82 kq), Günay Qurbanova (qadın güləşi, 59 kq).

**Gümüş medal:** Vasif Bağırov (sərbəst güləş, 57 kq), Ceyhun Allahverdiyev (sərbəst güləş, 61 kq), Səbuhi Əmiraslanov (sərbəst güləş, 79 kq), Yusif Dursunov (sərbəst güləş, 125 kq), Fərid Sadıxlı (yunan-Roma güləşi, 55 kq), Gültəkin Şirinova (qadın güləşi, 55 kq), Ruzanna Məmmədova (qadın güləşi, 62 kq).

**Bürünc medal:** Musa Ağayev (sərbəst güləş, 65 kq), Ramik Heybətov (sərbəst güləş, 70 kq), Zəfər Əliyev (sərbəst güləş, 97 kq), İlkin Qurbanov (yunan-Roma güləşi, 63 kq), Fərid Xəlilov (yunan-Roma güləşi, 67 kq), Fərahim Mustafayev (yunan-Roma güləşi, 72 kq).

Komanda hesabında sərbəst güləş üzrə millimiz Avropada 2-ci, yunan-Roma güləşi üzrə yığmamız 4-cü, qadınlardan ibarət komandamız isə 6-cı olub.

## Azərbaycan gimnastları 3 beynəlxalq turnirdə ümumilikdə 8 medal qazanıblar



Azərbaycan gimnastları ötən həftə keçirilən beynəlxalq turnirlərdə 8 medal qazanıblar.

İdman gimnastı Nikita Simonov Türkiyənin Antalya şəhərində təşkil olunan Dünya Kubokunda 3-cü yeri tutub. O, finalda 14.100 xal toplayıb.

Niderlandın Alkmaar şəhərində baş tutan batut gimnastikası üzrə Dünya Kubokunda qarışıq sinxron cütlüyü Selcan Mahsudova və Maqsud Mahsudov 51.090 xalla ikinci, sinxron proqramda isə kişi cütlüyü Hüseyn Abbasov və Maqsud Mahsudov üçüncü olublar.

Həmin şəhərdə keçirilən batut gimnastikası üzrə "Dutch Trampoline Open" beynəlxalq turnirində isə fərdi proqramda gimnastlarımız medal sıralamasında yer alaraq Azərbaycanı layiqincə təmsil ediblər. Belə ki, Selcan Mahsudova 56.580 xalla, Maqsud Mahsudov 60.030 xalla fəxri kürsünün 1-ci pilləsinə qalxıb. Hüseyn Abbasov isə 57.410 xalla bürünc medala layiq görülüb.

Sinxron proqramda Ömər Qasımlı və Muhamməd Həsənli 43.680 xalla qızıl, Maqsud Mahsudov-Hüseyn Abbasov cütlüyü isə 51.530 xalla gümüş mükafat əldə edib.

Qeyd edək ki, Selcan Mahsudova yarış zamanı ən çətin proqramı təqdim edən qadın idmançı kimi xüsusi kuboka da layiq görülüb.

## Azərbaycanın 3x3 basketbol millisi Çempionlar Kubokunda gümüş medal qazanıb



Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisi Tailandın paytaxtı Banqkokda keçirilən FIBA Çempionlar Kubokunda ikinci olub.

Yığmamız finalda Niderlanda 12:21 hesabı ilə uduzaraq gümüş medal qazanıb.

Turnirin qalibi Olimpiya Təsnifat turnirinə lisenziya əldə edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin K2 kamikadze dronunun sınaqları aparılıb



Dünyanın aparıcı hərbi pilotsuz uçuş aparatları (PUA) ixracatçısı olan Baykar şirkəti öz sinfində ən böyük kamikadze dronu olan K2-ni hazırlayıb, ilk beş prototipi uçuş sınaqlarını uğurla başa vurub.

Süni intellektlə təchiz olunmuş yeni PUA digərləri ilə yanaşı, sürü rejimində (hava müdafiəsini dəf etmək üçün eyni vaxtda birdən çox drondan istifadə etmə taktikası) avtonom şəkildə fəaliyyət göstərə bilir. Kamikadze dronun maksimal uçuş çəkisi 800 kiloqramdır. O, 75 kiloqrama qədər ağırlığında döyüş hissəsini 2 min kilometrdən çox məsafəyə daşıya bilir. Pilotsuz təyyarənin sürəti saatda 200 kilometrdir. Dron azı 13 saat havada qala bilir.

K2-nin unikal xüsusiyyətlərindən biri elektron müharibə sistemlərinə qarşı yüksək müqaviməti və GNSS-ə (Qlobal Naviqasiya Peyk Sistemi) çıxışın olmamasıdır.

Yeni pilotsuz təyyarənin sınaqları Egey dənizinin şimalındakı Saros körfəzində aparılıb. Baykar şirkəti, həmçinin K2 hücum pilotsuz təyyarəsinin təkrar istifadə edilə bilən versiyasını hazırlamağı planlaşdırır.

Şirkət bundan əvvəl Bayraktar TB2 SİHA hücum PUA-sı üçün 36 ölkəyə ixrac müqavilələri imzalayıb, Bayraktar AKINCI modeli isə 16 dövlətə tədarük edilib.

## KXDR Lideri artilleriya-raket bölmələrinin təlimini izləyib



Koreya Xalq Demokratik Respublikasının (KXDR) Lideri Kim Çen In qızı Kim Cu E ilə birlikdə uzaqmənzilli artilleriya bölmələrinin atəş təlimlərində iştirak edib.

Koreya Mərkəzi Xəbər Agentliyi (KCNA) xəbər verir ki, təlimə 12 ədəd 600 millimetr kalibrli ultradəqiq çoxsaylı raket buraxıcısı və iki artilleriya bölüyü cəlb olunub.

Məlumata görə, buraxılan raketlər Koreya yarımadasının şərq sularında təxminən 364,4 kilometr məsafədə yerləşən ada hədəfinə dəyib.

Bu, KXDR-in son günlər 2-ci hərbi aktivliyidir. Şimali Koreya ötən gün Yapon (Şərq) dənizi istiqamətində 10-dan çox ballistik raket buraxıb.

## Nigeriyada qeyri-qanuni silahlı birləşmələrin 18 üzvü zərərsizləşdirilib



Nigeriyanın müxtəlif bölgələrində keçirilən əməliyyatlar zamanı qeyri-qanuni silahlı birləşmələrin 18 üzvü zərərsizləşdirilib və 37 şübhəli saxlanılıb.

Bu barədə Nigeriya ordusunun bəyanatında qeyd olunur.

Vurğulanır ki, son 24 saat ərzində həyata keçirilən əməliyyatlar nəticəsində 18 terrorçu zərərsizləşdirilib, 37 şübhəli saxlanılıb, həmçinin çoxlu sayda silah və logistik avadanlıq ələ keçirilib. Bir neçə ştatı əhatə edən bu əməliyyatlar zamanı 9 nəfər girovluqdan azad edilib.

Nigeriya ölkənin qərb bölgələrində "əl-Qaidə" və "İŞİD" ilə əlaqəli terror qruplarının hücumlarından, eləcə də cənub-şərqdə "Boko Haram" və "İŞİD" qruplaşmalarının fəaliyyətindən əziyyət çəkir.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Musayev Sərxan Aqacan oğluna verilmiş AD № 0038052 nömrəli şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Qasımov Xalid Nursəməd oğluna verilmiş AD № 0041376 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 322
Nüsxə 3653